# Ədalət tərəzisindən uzaq olanda

Tarixi xronologiyaya nəzər saldıqca qanlı hadisələrin - tarixin qan yaddaşlarının şahidi oluruq. Demək dünyanın ən şüurlu varlığı olan insan yaşadıqca hər əsrin, hər nəslin bəşər tarixinə iz salacaq cinayət dolu hadisələri vardır. Müharibə, terrorlar, qiyamlar insan hüquqlarının pozulması zamanı baş verir. İnsanların hökmranlıq iddiaları, bir-birindən daha üstün olmaq; mala-mülkə hərislik, hegemonluq istəkləri başqalarının faciələri nəticəsində əldə edilir. Hər bir müharibə və terror hadisələri nəyə isə nail olmaq, həmçinin həyata keçirmək istədiyi bəd niyyətləri ilə münaqişə yaratmaq, insanların haqlarını, azadlıqlarını boğmaq, ədaləti inkar etmək, yağmalamaq, insanlara qarşı amansızcasına rəftar və hərəkət etmək onların hüquqlarının pozulması və faciəvi hadisələrlə nəticələnir. Tarixi xronikaya nəzər saldıqca qışın sərt aylarından biri, təqvim ilinin başlanğıc ayı olan yanvar ayında faciəvi hadisələrin şahidi oluruq. Bu isə tarix boyu nəsillərin yaddaşında əbədi həkk olunan «Qanlı Bazar», «Qanlı Yanvar» və s. hadisələrdir.




Qanlı bazar düz 120 il əvvəl baş vermişdir. Qanlı bazar nə deməK? Bu Sankt-Peterburqda fəhlələrin çar II Nikolaya ərizə təqdim etmək üçün Qış sarayına doğru sivil yürüş keçirən 100.000 nəfərin çarın əsgərləri tərəfindən amansızcasına atəş açılması nəticəsində 1000-dən çox insanın ölümü, 2000-dən çox insanın yaralanması ilə nəticələnən tarixi hadisədir.

Çar II Nikolay (1868 - 1918) cəmi 50 il yaşamışdır. O, 26 yaşında taxta çıxmışdır. Əldə olunan mənbələrə görə vicdanlı, dürüst və vətəninə bağlı bir insan olsa da, o, zəif, mövhumatçı və qətiyyətsiz biri idi. Bu isə Qanlı bazar hadisəsinin məhz keşiş Qaponun təhrikilə törədilməsi ilə daha bariz şəkildə hiss olunurdu.

Ədalətli bir hökmdar kimi tanınan çar II Nikolayın mənfi xüsusiyyətlərinə rəğmən müsbət xüsusiyyətləri çox idi.

Qanlı bazar hadisəsi 1905-ci il inqilabının başlanması üçün təkan oldu.

II Nikolayın ailəsi - 4 qızı, vəliəhd Aleksey (onun oğlu əlil idi), imperatriça və çar II Nikolay 1918-ci il iyulun 17-nə keçən gecə güllələndi. Bu nə qədər tükürpədici hadisə olsa belə Rusiyanın məhz ta qədimlərdən ədalət «tərəzisindən» çox-çox uzaq olmasının bariz nümunəsidir. Çar Rusiyası dövründəki insanlığa zidd olan istək və mübarizələr, dağılmaq və sonu ölüm belə olsa hegemonluq iddiaları illər boyu çox zaman da gizli şəkildə davam etmişdir. Zəif və kiçik dövlətləri ön plana çəkərək hegemonluq missiyası davam etdirilmişdir.




Azərbaycan xalqının - eləcə də bəşəriyyətin ən böyük, demək olar qanlı faciəsi olan 20 yanvar - qanlı qətliamı məhz əyani sübutdur.

Tarixdə baş verən hər bir qanlı faciə o hakimiyyətin süqutu ilə nəticələnir.

1990-cı il 20 yanvar hadisəsi də sovet hakimiyyətinin, kommunist partiyasının, 70 illik bir rejimin sonunu yaxınlaşdırdı.

Bu, 20 Yanvar - qara yanvar faciəsi idi...

**BİBİXANIM.**

# Tarixə həkk olunan istiqlal mübarizəsi

Müstəqillik tariximizin 20 Yanvar faciəsi Azərbaycanı müstəqilliyə aparan yolda yeni mərhələnin başlanğıc nöqtəsi oldu. 1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. 20 Yanvar faciəsi, eyni zamanda həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. 20 Yanvar hadisələri Azərbaycan xalqını müstəqillik uğrunda daha mətin vuruşmağa sövq etdi. Ümummilli amala çevrilən müstəqillik ideyaları məhz 20 yanvar tarixi ilə reallığa çevrildi. Qanlı 20 Yanvar hadisələri Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərdi, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu,xalqın cürətini-cəsarətini, rəşadətini və vəhdətini bariz şəkildə təsdiq etdi . 20 Yanvar milli həmrəyliyin,milli vəhdətin təzahürüdür. Haqq-ədalət tərəfdarı olan Azərbaycan xalqı 1990-cı ilin yanvarında Azərbaycanın azadlığı uğrunda zirehli texnikanın qarşısına əliyalın çıxdı. Azadlıq meydanında coşub kükrəyən xalq izdihamından qorxan,ermənilərin müttəfiqi,türk dünyasının qəddar düşməni olan M.S.Qorbaçov ədalətsiz bir fərman verdi.

1990-ci il yanvarın 19-dan 20-nə keçən gecə təpədən dırnağa qədər silahlanmış rus ordusu əliyalın, haqqını tələb edən xalqın haqq səsini boğmaq ücün xalqımızı tank altında əzdilər. Ancaq xalqın iradəsini qıra bilmədilər. Xalq bu dəhşətləri ümumxalq matəmi elan edərək, daha da sıx birləşərək Azərbaycan xalqının düşmənlərinə qarşı amansız olacağına and içdilər. Şəhidlər aşıb-daşan arzumuz, coşub kükrəyən azadlığımız, ürəklərimizin ağrısıdır.Namus, qeyrət rəmzimiz olan şəhidlər müqəddəs saydığımız vətənimiz Azərbaycanın müstəqilliyi uğrunda candan keçdilər. Biz bu mübarizə yollarında şəhidlər versək də fəqət sınmadıq. Azərbaycan müstəqilliyi uğrunda canlarından keçmiş oğul və qızlarını unutmur. Hər il yanvarın 20-si saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir. Faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqillikdə görüb. 20 Yanvar hadisələri nəticəsində Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi. Baş vermiş hadisələr dünya azərbaycanlılarının təşkilatlanmasına səbəb oldu. Dünya azərbaycanlıları ilk dəfə olaraq milli faciəmizin tanıdılması naminə yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar.



1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. Qanlı Yanvar günündən sonra fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçalada, yanvarın 26-da Lənkəranda dinc, günahsız insanlar qətlə yetirilmişdir. Ümumilikdə bu hadisələr zamanı respublikada 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Bütün bu faciələrdən sonra daha sıx birləşərək səsimizi dünya ictimaiyyətinə çatdırmaqda daha da fəal olmağımız vacib məsələ idi. Həmin anda ulu Öndər Heydər Əliyev 20 Yanvar həqiqətlərinin ifşa olunması istiqamətində xalqa arxa-dayaq olaraq geniş fəaliyyətə başladı, xalqın haqq səsini ucaltdı, etirazını açıq şəkildə bildirdi.

Ulu öndər Heydər Əliyevin Fərmanı ilə 1998-ci ildə “20 Yanvar Şəhidi” fəxri adı təsis edilib. Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşıb. Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həll olunmasına xüsusi diqqət ayırır. Qeyd edək ki, “20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar” 2023-cü il 11 yanvar tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2006-cı il 19 yanvar tarixli Fərmanına bir neçə dəyişiklər etmişdir. Bütün bunlar dövlətin Şəhid ailələrinə verdiyi böyük dəyər, diqqət və qayğının təzahürüdür.

Bəl, bütün bunlar hamısı doğma vətənimiz Azərbaycanın tarixidir. Bu tarixi qorumaq, mühafizə etmək dərindən öyrənmək müasir dövrdə muzeylərin öhdəsinə daha çox düşür. Ümumiyyətlə, hər bir xalqın neçə tarix yaşamasını onun muzeyləri əks etdirir. Milli mədəniyyətimiz milli idealogiyamızın əsasını təşkil etdiyi kimi muzey də xalqımızın nəyə qadir olduğunu göstərir. Muzey xalqın maddi-mənəvi sərvətlərini qoruyan bir müəssisə olmaqla bərabər tariximizin,bu gümüzün,gələcəyimizin aynasıdır. Tarixi qoruyub gələcək nəsillərə çatdırmaq üçün muzeylər xalqın həyatında böyük rol oynayır. Çünki bu daşlaşmış yaddaşlarımızı silkələmək, tarixi unutmamaq üçün lazımdır.

Deyirlər tarix təkrar olunur və haqq ədalət gec də olsa zəfər çalır. Bəli, biz zəfər çaldıq. İndi inkişaf etmiş dövlətlər sırasında Azərbaycanımızın özünəməxsus yeri var. Bu cür ağır sınaqlardan çıxan respublikamızla sıx əməkdaşlıq edən dövlətlərin sayı durmadan artmaqdadır.

Nə etmək olar. İstiqlal qurbansız olmur. İndi bütün bunlardan sonra xalq öz tarixini unutmamalıdır, çünki keçmişini unutmadan gələcəyini düşünən xalq millətdir. Xalqımızın tarixində baş verən bu faciələri unutmadan, bu bir tarixdir keçib gedib, deməd ən, Cənab prezidentimiz İlham Əliyevin ətrafında yumruq kimi sıx birləşərək daim irəliyə doğru addımlayaq.

**İlhamə SEYİDOVA,**
**“Qəbələnin” ştatdankənar müxbiri.**

# Şahmat yarışları keçirildi

11 - 12 yanvar 2025-cl II tarixlərində Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi Şəkl - Zaqatala Regional Gənclər və İdman İdarəsi İlə birgə "20 yanvar Ümumxalq Hüzn Günü" münasibətilə idmanın şahmat növü üzrə məktəblilər arasında rayon birinciliyi yarışları keçirmişdir.

Tədbirin açılışında məktəbin direktoru Ədalət Əliyev çıxış etmiş, 20 yanvar faciəsi İlə bağlı məlumat vermiş, şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilmişdir.

Aşağıda adları qeyd olunmuş şahmatçılar birinci yerləri qazanmışlar.

1. Surxayev Elnar Tural oğlu - 6 yaş dərəcəsi.
2. Abdurahmanov Səid Səbuhi oğlu - 8 yaş dərəcəsi.
3. Lətifli Hülya Şəmlstan qızı - 8 yaş dərəcəsi.
4. Məmmədli Uğur Arzu oğlu - 10 yaş dərəcəsi.
5. Osmanova Mədinə Fərman qızı - 10 yaş dərəcəsi.
6. Sadıqov Musrafa Rusi oğlu - 12 yaş dərəcəsi.
7. Surxayeva Zəhra Tural qızı - 12 yaş dərəcəsi.
8. Şirinov Sunay Elnur oğlu - 14 yaş dərəcəsi.
9. İbrahimova Fidan Pərviz qızı - 14 yaş dərəcəsi.
10. Tağıyev Tağı Taleh oğlu - 16 yaş dərəcəsi.
11. Eyyubova Selcan Məcid qızı - 16 yaş dərəcəsi.

Yarışın sonunda qaliblərə Şəki - Zaqatala Regional Gənclər və İdman İdarəsinin diplomları təqdim olunmuşdur.

**N. RİZVANOVA,**
**Qəbələ Uşaq-Gənclər İdman- Şahmat Məktəbinin direktor müavini.**